**AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMIYASI**
**MEMARLIQ VƏ INCƏSƏNƏT INSTITUTU**

*Əlyazma hüququnda*

**RAMİL AFİQ oğlu QULİYEV**

# TÜRK XALQLARININ TƏSVİRİ SƏNƏTİNDƏ DƏDƏ QORQUD OBRAZI

**İxtisas:** 6215.01 – “Təsviri sənət”

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2018**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının "Kulturologiya" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Ərtegin Əbdül Vahab oğlu Salamzadə**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*
*AMEA-nın müxbir üzvü*

**Rəsmi opponentlər:** **Kubra Muxtar qızı Əliyeva**
*sənətşünaslıq üzrə elmlər doktoru, professor*
*Əməkdar incəsənət xadimi*

**Aslan Əkbər oğlu Xəlilov**
*sənətşünaslıq üzrə fəlsəfə doktoru*

**Aparıcı təşkilat:** **Azərbaycan Memarlıq və İnşaat Universiteti**

Dissertasiyanın müdafiəsi "__" noyabr 2018-ci il saat __$^{00}$-da Azərbaycan Milli Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutunun nəzdində yaradılmış FD.01.191 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ-1143, Bakı şəhəri, H.Cavid prospekti 115. AMEA Memarlıq və İncəsənət İnstitutu.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "__" oktyabr 2018 -ci il tarixində göndərilmişdir.

**FD.01.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru, dosent:** **X.A.Zeynalov**

## TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqatın aktuallığı.** Türk dilinin ən gözəl və diqqətəlayiq əsərlərindən biri olan Dədə Qorqud Kitabı (tam adı - Kitab-i Dədəm Qorqud əla lisan-i taife-i Oğuzan" (Oğuz tayfalarının dilində Dədəm Qorqudun kitabı)) 200 ildir ki, elm aləminə məlumdur.

Dədə Qorqud hekayələri, Oğuz Türklərinin inancları, yaşayış və cəmiyyətləri haqqında məlumatları, onların adət və ənənələrini, igidliklərini, özünəməxsus xarakteri və əxlaqını, ruh möhkəmliyini, saf, təmiz bir türk dili ilə dilə gətirir.

Müasir dövrdə "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, dünyada geniş tanıdılması və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Hələ 1975-ci ildə Heydər Əliyevin tapşırığına əsasən, Azərbaycanda tanınmış sənət xadimlərinin iştirakı ilə "Dədə Qorqud" bədii filmi çəkilmişdir. Ulu öndər Heydər Əliyevin Fərmanı ilə dastanın 1300 illiyi türkdilli ölkə rəhbərlərinin iştirakı ilə dövlət səviyyəsində qeyd olunmuşdur. Ümummilli lider Heydər Əliyevin 2000-ci ildə imzaladığı Fərmana əsasən Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması qərara alınmışdır. Bu tarixi abidənin qorunmasına dövlət səviyyəsində göstərilən diqqətin nəticəsidir ki, Prezident İlham Əliyev 2004-cü ildə Brüsseldə Dədə Qorqud abidəsinin təntənəli açılışında iştirak etmişdir. Dövlətimizin başçısının 2007-ci ildə imzaladığı "Azərbaycandakı monumental heykəltəraşlıq abidələri, xatirə-memorial və memarlıq kompleksləri haqqında" Sərəncama əsasən, Dədə Qorqud heykəli və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması ilə bağlı müvafiq tədbirlərin görülməsi haqqında tapşırıq verilmişdir.

Son illər «Kitabi Dədə Qorqud» dastanı ilə bağlı meydana çıxan həm ədəbiyyatşünaslıq, həm də dilçilik istiqamətli yeni tədqiqatlar göstərir ki, artıq abidənin qədim türk ədəbiyyatı və dili tarixində yeri, mətni, məzmunu, poetikası, əsatir qaynaqları, strukturu daha dərindən öyrənilməyə başlanmışdır.

Bununla bağlı olaraq təsviri və tətbiqi incəsənət sahələrində də bu dastana demək olar ki, bütün türk xalqları tərəfindən maraq göstərilməkdədir. Dastanda adı çəkilən şəxslərin, hadisələrin baş verdiyi ərazilərin sözlə təsvir edilməsindən istifadə edilərək əsərlər yaradılmağa başlanılmışdır. Obrazların geyimi, məkan və digər

aksesuarlar hər bir xalqın özünəməxsus tərzinə uyğun verilməsi ilə seçilir. Bu baxımdan Dədə Qorqud baş qəhrəmanlardan biri sayılaraq diqqət mərkəzində olmuş, müxtəlif üz cizgiləri ilə verilməsinə baxmayaraq, qopuzu daim özü ilə təsvir edilmişdir. Ümumiyyətlə, bu dastana təsviri sənət sahəsində göstərilən maraq ondan ibarətdir ki, epos janr, obraz, ideya tükənməzliyinə malikdir.

Araşdırmanın aktuallığını səciyyələndirən xüsusiyyətlər aşağıdakılardı;

- Türk xalqlarının təsviri sənətində Dədə Qorqud siması ayrıca olaraq tədqiqat predmeti kimi araşdırılmayıb.
- ilk dəfə olaraq “Kitabi Dədə Qorqud” dastanına, xüsusilə Dədə Qorqud obrazına həsr olunmuş Türk dünyası sənətkarlarının təsviri sənət nümunələrinin toplu halına salınması xüsusi əhəmiyyət kəsb edir.
- təqdim olunan topluya daxil olan nümunələrin müasir ədəbi düşüncəyə təsiri danılmazdır:

**Problemin işlənmə dərəcəsi.** Bu sahədə ədəbiyyatşünaslıq, dilçilik istiqamətli yeni tədqiqatların aparılmasına baxmayaraq, Azərbaycan təsviri sənətində sənətşünas və kulturoloqlar tərəfindən yazılmış məqalələr daxildir. Bəzi tədqiqatçılar isə yalnız bir sənətkarın yaradıcılığını araşdırarkən onun KDQ dastanına müraciət edib işlədiyi əsərləri monoqrafiyasında qeyd etmişdir. Bu mənada sənətşünaslardan Ə.Ə.Salamzadə, Z.Əliyev, Z.Səfərova, F.Mir-Bağırzadə, A.Səfərova kulturoloqlardan N.Abbasov, V.Kərimli, Zira Naurzbayeva və teatrşünas İ.Kərimov kimi tədqiqatçıların adlarını qeyd etmək olar.

Analiz göstərir ki, nəinki müasir Azərbaycan, hətta Türk dünyası mədəniyyətində bu mövzuda yalnız tezis, məqalə tipli yazılara rast gəlmək olur. Bu problem indiyə qədər öz fundamental, sistemli və kompleks tədqiqini tapmayıb. Ona görə də bu qlobal mövzunun elmi müstəvidə araşdırılmasına böyük ehtiyac yaranmışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi Türk xalqlarının təsviri sənətində Dədə Qorqud obrazını, ikonoqrafiyasını araşdırıb, oxşar və fərqli xüsusiyyətləri aşkar edib, Ümumtürk düşüncəsində yeri və önəmini üzə çıxartmaqdır.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələri yerinə yetirmək nəzərdə tutulmuşdur.

- Bu mövzu ilə bağlı şəxsi kolleksiyalarda, yerli və xarici ölkə muzeylərində saxlanan təsviri sənət nümunələri də daxil olmaqla xronoloji ardıcıllıq baxımından dəqiqliklə izləmək;

- Toplanmış sənət nümunələrinin hərtərəfli və obyektiv tədqiq və təhlil edilməsi;

- Dədə Qorqudun kimliyinin ilk növbədə dastanda, sonra isə tarixi mənbə və əfsanələrdə araşdıraraq xarakterik xüsusiyyətlərini qeyd edib, təsviri sənətdə bu sifətləri (ozan, şaman, peyğəmbər, tanrı) üzə çıxarmaq:

- Qopuz haqqında qısa məlumat verərək, təsvirlərdə obrazın formalaşmasında onun nə kimi rol oynadığını tədqiq etmək:

- Obrazın təsviri sənət yolunda təsvir və ideya təkamülünü xronoloji ardıcıllıq nəzərə alınmaqla araşdırmaq:

- Sənət nümunələrində obrazın geyim tərzi, əlavə olunan aksesuarları dastanla müqayisəli şəkildə təhlil etmək:

- Ayrıca olaraq Azərbaycan təsviri sənətində Dədə Qorqud obrazının yeri və önəmini vurğulayaraq əsərlərdə istifadə olunan millilik ənənələrini qeyd etmək:

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycan və digər türk xalqlarının sənət nümayəndələrinin KDQ dastanına, xüsusilə də Dədə Qorqud obrazına həsr etdiyi kitab illüstrasiyaları, sərgilərdə nümayiş olunan, şəxsi kolleksiya və muzüylərdə saxlanılan əsərlər təşkil edir.

Tədqiqatın predmetini isə Türk xalqlarının təsviri sənətində Dədə Qorqud obrazıdır.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqatın metodologiyası mövzunun seçilməsi və onun XX-XXI əsr Türk xalqlarının təsviri sənəti kontekstində araşdırılması zərurəti ilə şərtləndirilir. Onun əsasını rəssam və tişə ustalarının zəngin yaradıcılığında yer alan KDQ mövzusunun bədii xüsusiyyətlərinin üzə çıxarılması və ayrı-ayrı əsərlərin təhlili təşkil edir. Tədqiqat işində nəzərdən keçirilən problemlərin təhlilində milli və ümumbəşəri dəyərlərdən, KDQ dastanı ilə bağlı və türk xalqlarının tarixindən bəhs edən kitablardan, sənətşünas, qorqudşünas alimlərin elmi-nəzəri qənaətlərindən faydalanılmışdır.

Müqayisəli təhlil metodu təsviri sənət sahəsində fəaliyyət göstərən sənət nümayəndələrinin yaradıcılığını qarşılaşdırılmağa, tətbiq etdikləri çeşidli bədii-texniki vasitələrlə KDQ mövzusunda yaratdıqları əsərlərin səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa kömək edir.

Araşdırılan əsərlərin ikonoqrafik, ikonoloji və semantik təhlili onların obrazlı həllinin bədii-estetik səviyyəsini aşkarlamağa şərait yaradır.

**Tədqiqatın sərhədləri.** Tədqiqat zamanı türk xalqlarının təsviri sənətində Dədə Qorqud siması xronoloji ardıcıllıqla araşdırılmış və bu haqda lazımi qeydlər dissertasiyada öz əksini tapmışdır. Eyni zamanda tədqiqat işində KDQ mövzusuna müraciət etmiş, XX-XXI əsrdə fəaliyyət göstərən görkəmli fırça və tişə ustalarının yaradıcılığına da müəyyən yer ayrılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakı müddəalarda öz əksini tapmışdır:

- Türk təsviri sənətində Dədə Qorqud siması ayrıca olaraq tədqiqat predmeti kimi araşdırılaraq Azərbaycan sənətşünaslığında ilk dəfə olaraq tam və dolğun monoqrafik tədqiqat obyekti kimi kompleks şəkildə təqdim olunmuşdur;
- İlk dəfə olaraq "Kitabi Dədə Qorqud" dastanına, xüsusilə Dədə Qorqud obrazına həsr olunmuş Türk dünyası sənətkarlarının təsviri sənət nümunələrinin toplu halına salınmışdır:
- Bilavasitə Dədə Qorqud simasına əvvəllər mövcud olmuş bütün yanaşmalardan fərqli münasibətlə şərtlənir - peyğəmbər, tanrı kimi sifətlər :
- Bir çox sənətkarların (bəziləri ilə şəxsi münasibət qurularaq) bədii görüntüyə gətirdiyi və bu günədək geniş ictimaiyyətə təqdim olunmayan, eləcə də elmi tədqiqata cəlb olunmayan əsərləri ilk dəfə olaraq ətraflı şəkildə tədqiq edilərək elmi dövriyyəyə çıxarılır;
- 120-ə yaxın sənətkarın 600-ə yaxın əsəri toplanmış, 200-ə yaxın əsər tədqiqat işinə daxil edilmişdir.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqat işi incəsənət təmayüllü ali və orta ixtisas təhsil müəssisələrində sənətşünaslıq ixtisası üzrə təhsil alan tələbələrə, eləcə də ədəbiyyatşünaslıq, türkologiya, musiqişünaslıq və s. sahələri üçün dəyərli tədris vəsaiti kimi istifadə oluna bilər.

Eyni zamanda dissertasiya işi KDQ dastanı haqqında yazılmış ayrıca elmi-tədqiqat işi kimi, bu sahədə çalışan hər bir şəxs üçün dəyərli vəsaitdir.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası, Memarlıq və İncəsənət institutunun "Təsviri, dekorativ-tətbiqi sənətlər və heraldika" və "Kulturologiya" şöbələrinin

birgə təşkil etdiyi iclasda müzakirə olunmuşdur. Tədqiqatın əsas məzmunu, elmi mahiyyəti və əldə olunan nəticələr müxtəlif səviyyəli elmi konfranslarda dinlənilmiş, eləcə də müəllifin çap olunmuş bir sıra elmi məqalələrində öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Tədqiqat işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu 136 səhifədə öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## DİSSERTASİYANIN QISA MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində tədqiqatın aktuallığı, işlənmə dərəcəsi, məqsəd və vəzifələri, obyekti və predmeti, metodoloji əsasları, tədqiqatın sərhədləri, elmi yeniliyi, nəzəri və təcrübi əhəmiyyəti, eyni zamanda tədqiqatın aprobasiyası və strukturu haqqında məlumat verilir.

Dissertasiyanın "**Dədə Qorqud obrazının formalaşması və təkamülü** " adlı I fəslin ilk yarımfəsli "**Kitabi Dədə Qorqud dastanında Dədə Qorqud obrazı"** adlanır və bu yarımfəsildə dastan, tarixi mənbə və əfsanələrdə Dədə Qorqudun şəxsiyyəti haqqında məlumatlar öz əksini tapmışdır.

Yarımfəsildə Oğuz türkləri haqqında məlumat verilərək onların ictimai-siyasi, tarix-mifoloji, dini-fəlsəfı fikirlərini, epik-bədii təfəkkürünü əks etdirən Oğuznamələr haqqında məlumat verilmişdir.

Elm aləminə XVIII əsrin ortalarına qədər məlum olmayan "Kitab-i Dədəm Qorqud əla lisan-i taife-i Oğuzan" (Oğuz tayfalarının dilində Dədəm Qorqudun kitabı) iki əsrə yaxın bir zamandan bəri məlumdur. Dastanı tədqiq obyektinə çevrilərək müxtəlif dillərdə nəşr olunmasını tarixi əslində Fridrix Fon Ditsin adı ilə bağlıdır. O, 1815-ci ildə "Təpəgöz" boyunu alman dilinə tərcümə edərək çap etdirmişdir. 1894-cü ildə akademik Bartold əsərin boylarını rus dilinə, 1916-cı ildə Kilisli Müəllim Rifət eposu Berlin nüsxəsi əsasında ərəb əlifbası ilə, 1938-ci ildə yenə də türk alimi Orxan Şaiq Gökyay əsəri nəşr etmişdir. Həmin ildə əsər Azərbaycanda da latın əlifbası ilə nəşr edilmişdir. Sonrakı illərdə (1962, 1978) epos yenidən, öncəki nəşrlərdəki mətbəə xətaları da nəzərə alınaraq çap olunmuşdur.

Məşhur rus şərqşünaslarından akademik V. V. Bartold, A. I. Kononov, V. M. Jirmunski, Azərbaycan alimlərindən Əmin Abid,

H.Araslı, Ə.Dəmirçizadə, M.H.Təhmasib, Anar, M.Seyidov, Ş.Cəmşidov, K.Abdulla, T.Hacıyev və digərləri, türk alimlərindən Müəllim Rifət, Orxan Şaiq, Məhərrəm Ergin və başqaları dastanın tədqiqi və nəşrində böyük əmək sərf etmişlər.

Yarımfəsildə "dədə" sözü və "Qorqud" isminin etimologiyası barədə mənbə və tədqiqatlara əsaslanaraq qeydlər aparılmışdır.

Dastanın iki yerində Qorqud Ata haqqında deyilən sözləri Oğuznamələrdə onun haqqındakı məlumatlarla müqayisəli şəkildə tədqiq edilmişdir. Bununla yanaşı onun kimliyi barədə məlumat əldə etmək üçün daha çox aşağıdakı mənbələrə istinad edilir:

1. Kitabi Dədə Qorqud dastanları (Vatikan və Drezden nüsxələri);
2. Oğuzların tarixi haqqında məlumat verən müxtəlif mənbələr;
3. Türk xalqlarının dastanları, əfsanə və rəvayətləri.

Dədə Qorqudun şəxsiyyətini araşdırmaq üçün dastan, Oğuznamələr və əfsanələri tədqiq etdikdə onun kimliyi ilə bağlı bəzi ziddiyyətli məqamlar qarşımıza çıxsa da oxçar xüsusiyyətlər çoxdur. Sadəcə sabit bir fikrə gəlməyimizə mane olan "zaman" və "məkan"dır. Fərqli zamanlarda, müxtəlif ərazilərdə yaşadığı söylənilən, hətta bir neçə qəbrinin olması faktları bizi bu şəxsin bir deyil, ayrı-ayrı dövrlərdə yaşamış eyni adlı çoxlu "Dədə Qorqud"ların olmasını söyləməyə vadar edir. Lakin bir nüans da vardır ki, necə ola bilər ki, bütün bu sadalanan şəxslərin səciyyəvi xüsusiyyətləri üst-üstə düşsün?! Yuxarıda qeyd etdiyimiz "zaman" və "məkan" nəzərə alınmasaydı Qorqud Ata haqqında olan qeydlər vahid bir obrazın yaranmasına böyük yardımçı olur.

I Fəslin "**Qopuz Dədə Qorqud obrazının formalaşması amili kimi**" adlı ikinci yarımfəslində bu musiqi alətinin, Türk xalqlarının mədəniyyət tarixində çox əhəmiyyətli bir yer tutduğu vurğulanmışdır. Tarixi faktlara əsaslanaraq alət haqqında məlumat verilərək, dastanda yalnız musiqi aləti kimi deyil, həm də qeyri-adi gücə malik varlıq kimi baxıldığı qeyd edilmişdir.

Mənbələrdə qopuzun həm qolça qopuz –müasir sazın sələfi, həm də diz üstə qoyularaq kamança kimi ifa edilən növlər haqqında danışılaraq təsviri sənət nümayəndələrinin əsərlərindən nümunələr gətirilir. Elman Cəfərov, Fatih Başbuğ, Yusif Hüseynov. Natiq Eyyubov və s. sənətkarların kompozisiyalarında qolça qopuz və hətta Ənvər Əliyev, İntiqam Ağayev işlərində bu formanın ibtidai formasına.

Mirnadir Zeynalov, Tahir Salahov. Rüstəm Aljanovun, Orazbəy Yesenbayev və digər rəssamların işlərində isə diz üstə qoyularaq ifa edilən qopuz diqqətə çatdırılmışdır. Bununla yanaşı qopuzun qoç, at və s. formalı başlıq hissəsinə xüsusi olaraq toxunaraq şamanların digər dünya ilə əlaqəsini təmin etmiş olduğu nəzərə çatdırılır. Üzərindəki at simvolu olan qopuz, eynilə ritual bir alət və ya şaman ayinində istifadə olunan davulun şamanı digər dünyaya daşıyan atı kimi qəbul edilir, şair-dastançını başqa yerlərə götürür[1].

Türk tayfalarının adət, ənənə və etiqadlarında son dövrlərə qədər mühafizə edilmiş olan qədim dini inanclar və ənənələri araşdırarkən ta skif və Hun dövrlərinin dərinliklərinə qədər endikdə belə musiqi aləti olan qopuzu görmüş oluruq.

Yuxarıdakı qeydlərə əsasən onu deyə bilərik ki, hal-hazırda müxtəlif formalarda mövcud olan qopuz, onu yaradan Dədə Qorqudun bir obraz kimi formalaşmasında böyük rol oynayır. Çünki, qopuz formanı tamamlayaraq ozan, şaman, baksı təsəvvürü yaradır və düşünürəm ki, təsviri sənətdə qopuzsuz Dədə Qorqudun kim olduğunu anlamaq çətin olardı. Çünki bu obrazla bağlı istənilən kompozisiya qopuzsuz yaradıla bilməz, hər ikisinin bir arada verilməsi daha məqsədəuyğundur.

I Fəslin "**Obrazın təsvir və ideya təkamülü**" adlı üçüncü yarımfəslində ilk yaradılan əsərlərdə daha çox ozan kimi təqdim olunan müdrik qocaya sonrakı dövrlərdə münasibətin fərqli istiqamətlərdə inkişaf etməsi diqqətimizi çəkir. Məzmun, süjet, ideya və təsvirin paralel olaraq inkişafı sonrakı rəssam və heykəltəraşların işlərində tam aydınlığı ilə özünü göstərir. Hətta əsərlərdə simvolik məna daşıyan detal və obrazlara rast gəlirik. Bu isə onunla bağlı idi ki, öncə yaradılan kompozisiyalar kitabların tərtibatı üçün sifariş xarakteri daşıyırdı. Sonrakı dövrlərdə isə sənətkarların yaradıcılığının bir hissəsi olaraq onların təxəyyülünün məhsuluna çevrilir.

Əgər Mikayıl Abdullayev, Fəxrəddin Əliyev, Vəfa Allahyarova və s. sənətkarların əsərlərdə Dədə Qorqud ozan kimi təqdim olunursa Aybek Rozakov, Qabriel Ruhi Tuna, Tahir Tahirov, Vaqif Ucatay, Adil Əsədli, İsmayıl Məmmədov və digər rəssam və heykəltəraşların işlərində fərqli münasibətdə yanaşılır.

---

[1] Reich Karl, Türk Boylarının Destanları (Çev. Metin Ekici), Atatürk Kültür Dil ve Tarih Yüksek Kurumu, TDK Yay. 805, Ankara 2002, s.109

Bu mövzu ilə bağlı yaradılan əsərlərin qarşısında duran tamaşaçıda belə bir sual yaranır: "Axı, Dədə Qorqud kimdir?, ozan, şaman, peyğəmbər yoxsa Tanrıdır?". Hər bir rəssamın təxəyyülündə çanlandırdığı "Öz Dədə Qorqudu" var. Və biz, sənətşünaslar həmin ideyaların bu folklor obrazına aid olmadığını deyə bilmərik. Məhz ona görə ki, kompozisiyalarda yaşlı qocaya verilən "sifətlər", "xüsusiyyətlər" həqiqətən də ona xasdır.

Dissertasiyanın "**Türk xalqlarının təsviri sənətində Dədə Qorqud obrazı** " adlı II fəslin "**Türk xalqlarının təsviri sənətində Dədə Qorqud obrazının oxşar və fərqli xüsusiyyətləri**"adlı birinci yarımfəslində türklərin qısa tarixi və soyunun əsas xüsusiyyətləri haqqında giriş verərək, "Kitabi-Dədə Qorqud" dastanının öyrənilməsi, təbliği və dünyada tanıdılması sahəsində ümummilli lider Heydər Əliyev və onun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi ardıcıl və məqsədyönlü tədbirlərdən söz açılmışdır.

Yarımfəsildə Dədə Qorqud obrazına daha çox müraciət edən Azərbaycan, Qazaxıstan, Türkiyə, Türkmənistan sənətkarlarının əsərlərinə yer verilərək, mövzu ilə bağlı müxtəlif obrazları özündə əks etdirən əsərlər yaratmış Tatarıstan, Özbəkistan, Tuva, Altay və s. sənət nümayəndələrinin işlərinə də yer ayrılmışdır.

Azərbaycan, Türkiyə və Qazaxıstanda KDQ dastanına həsr olunmuş abidələr haqqında məlumat verilərək müqayisəli təhlil olunmuşdur.

A.Azərelli, S.Muğanlı Eray Okkan, N.Zeynalov, R.İsmiqaya, Yarlı Bayramov, B.Urmançe, T.Salahov, A.Taranova, M.Tağıyev, Mirnadir Zeynalov, A.Duzelxanov, Ə.Əlımırzəyev, N.Bəykişiyev və Delqer-oll Ruslan, Ə.Sıdıxanov. Assol Sas, F.Abdullayev, R.Aljanov və F.İbrahimov, Ə.Heybətov və R.Sarsenbayevin və digər sənətkarların əsərləri müqayisəli təhlil olunaraq nəticələr əldə olunmuşdur.

Araşdırmamızın nəticəsi olaraq təsviri sənətdə Dədə Qorqud obrazının oxşar xüsusiyyətlərinə aşağıdakı ümumiləşmiş punktları qeyd edə bilərik.

- Ağ saçlı saqqallı qoca;
- Qopuz ifa edən müdrik Dədə;
- Təmkinli, kədər dolu üz cizgiləri.

Fərqli xüsusiyyətlərdə isə Dədə Qorqudun gənc, sifətində gülüş, başı tüksüz, qanadlı, sərkərdə kimi və s. səciyyəvi xarakterlərləri əlbəttə ki, sənətkarların mövzu haqqında bilgisiz olmasına işarə deyil, sadəcə olaraq obraza olan özlərinəməxsus baxış tərzlərindən irəli gəlir.

II Fəslin "**Obrazın kimliyinin təsviri sənətdə izləri - tanrı, peyğəmbər, şaman yoxsa ozan**" adlı ikinci yarımfəslində ilk növbədə dastanın giriş hissəsində Dədə Qorqud haqqında olan sözlərə diqqət çəkilərək kimliyi iki hissəyə bölünmüşdür: ilahi və müdrik, el ağsaqqalı kimliyi.

Akademik Tofiq Hacıyev, Kamal Abdulla və AMEA-nın müxbir üzvü Ərtegin Salamzadənin bu obrazın şəxsiyyəti haqqındakı fikirləri nəzərdən keçirilir.

Əvvəlki yazılarımızda Dədə Qorqud obrazının təsviri sənətdə müxtəlif sifətlərinə rast gəlmişik. Bu fəsildə isə bununla bağlı məlumatların sistemləşdirilmiş məcmusu verilmişdir. Birinci fəsildə qəhrəmanımızın şəxsiyyəti və kimliyi barədə mənbələrdə dəqiq məlumatın olmadığını, dastanın iki nüsxəsindən (Vatikan və Drezden), Oğuznamələrdən, Türk xalqlarının dastan, əfsanə və rəvayətlərindən alınan məlumatlarda isə fərqli sifətlərə rast gəldiyimizi söyləmişdik. Dədə Qorqud adının keçdiyi ən qədim tarixi mənbə isə Elxanlı vəziri Rəşidəddinin "Câmi'üt-təvârih" adlı əsəridir (XIV əsrin ilk rübü). Məsələ ondadır ki, mövzu ilə bağlı ilk təsviri sənət nümunəsinə də məhz Xacə Rəşidəddin Fəzlullahın Oğuznaməsində rast gəlirik. Lakin ardıcıllığın pozulmaması üçün qəhrəmanımızın təsviri sənət nümunələrində "Tanrı", "peyğəmbər", "şaman", "ozan" sifətlərini araşdırmağa çalışacağıq.

K.Quliyev, V.Ucatay, A.Duzelxanov və P.Əsgərovanın əsərlərində "Tanrı" məqamına çatmış, F. Məmmədvəliyev, T.Məmmədov, N.İbrahimova, G.Məcidova və s. tablolarında "peyğəmbər", İ.Məmmədov, Sancar Özer, Assol Sas, Ü.Həmzəyeva, A.Nazarkulov, N.Tereşenko, Ə.Koylakayevin kompoziziyalarında "şaman" və nəhayət O.Sadıqzadə, A.Azərelli, B.Qasımxanlı və digər sənətkarların tablolarında ozan kimi sifətləri sistemli şəkildə və ardıcıl olaraq təhlil edilmişdir.

Təsviri sənətdə bu simanı araşdırmaqda məqsədimiz ortaq bir fikrə gəlib yeganə obraz taparaq "Qorqud Ata budur!" demək deyil. Məsələ burasındadır ki, ideya tükənməzliyinə malik olan obraz bizə, bu fikrə

gəlməyə də mane olur. Təsvirlərdə nəinki simanın üz cizgiləri, hətta geyimi, qopuzu və başqa aksesuarlar da fərqli verilir.

Nəinki təsviri sənətdə, mədəniyyət, folklorda, ədəbiyyatşünaslıqda Dədə Qorqudu özününküləşdirmək "Ulu Türkün Ruhunu" incitmək deməkdir. Amma hər bir türkün öz Dədə Qorqudu var deməyək, bütün türk xalqlarını budaqlar kimi bir ağaca – Dədə Qorquda birləşdiyini düşünüb, bir Qorqud Atamız var - deyək.

II Fəslin "**Təsvirlərdə obrazın geyim tərzi, aksesuarlar (Dədə Qorqud boyları əsasında)**" adlı üçüncü yarımfəslində Türk xalqlarının geyim tarixi və mədəniyyətində söz açaraq dastanda olan geyim növlərindən misallar gətirilərək təsviri sənətdə onların oxşar nümunələri tapılaraq müqayisəli şəkildə təhlil edilmişdir.

Bütün bu geyim növləri və əlavə olunan aksesuarları nəzərə alaraq dastanda nümunələr gətirməklə təsviri sənətdə həm Dədə Qorqud, həm də digər obrazların geyim tərzini açıqlamağa çalışmışıq Sənətkarların yaratdıqları bir-birindən dəyərli əsərlərdə izləyicilərə təqdim etdikləri geyim növləri hər bir sənət nümayəndəsinin mənsub olduğu xalqın ənənəvi geyim mədəniyyətinin təqdimatıdır. Dədə Qorqud simasını ayrı-ayrı bölgələrin adət-ənənə, dini düşüncə və inanclar, ümumi dünyagörüşü, iqtisadi durum və s. faktorlar nəzərə alınaraq fərqli geyimlərdə təsvir edilmişdir. Bu geyim növləri zəngin Türk maddi mədəniyyətinin keçmişi və bu günü haqqında daha dəyərli görüntülərdir.

Təsviri sənət nümayəndələrindən L.Aslanov, T.Tahirov, X.Səfərova, S.Məmmədov, N.Sautbəyov. H.Hacıyev, İ.Ağayev, A.Hacıyev, O.Yesenbayev, C.Quliyev, Ə.Əliyev, U.Yadamsuren, Ə.Bayramov və digərlərinin ərsəyə gətirdikləri kompozisiyalarda Dədə Qorqudun geyimində hifz olunan sənətkar böyüklüyünü yaddaqalan tərzdə ifadə etməyə nail olmuşdular.

Türk xalqlarının geyim tarixi və mədəniyyətində söz açıb dastanda olan geyim növlərindən misallar gətirərək Dədə Qorqudun geyimi haqqında dastanda heç bir məlumat verilməməsinin şahidi olduq. Lakin obrazın geyimi təsviri sənətdə çeşid müxtəlifliyi və rəngarəngliyi ilə seçilir. Təsvirlərdə üst, baş, ayaq geyimləri və geyimə əlavə olunan aksesuarlar rəssam və heykəltəraşların kompozisiyalarında sistemli şəkildə araşdırılaraq bu nəticəyə gəlinmişdir ki, bütün bu sənət nümunələri dastanda sözü gedən dövrün geyim mədəniyyəti haqqında dolğun məlumat almaq üçün dəyərli mənbə rolunu oynaya bilər.

Dissertasiyanın “**Azərbaycan təsviri sənətində Dədə Qorqud obrazının yeri və önəmi**” adlanan III fəslinin “**Obrazın yaradılmasında millilik ənənələri**” adlı birinci yarımfəslində təsviri sənətdə dastanın millilik ənənələrindən danışılaraq, əsas diqqət ümumiləşdirilmiş milli obraz - Dədə Qorqud simasına yönəldilir.

Eposun müasir Azərbaycan təsviri sənətinə təsirinin başlıca xüsusiyyətləri hesab edirəm ki, bunlardır:

- Millilik, dastanın əsas ana cizgisini təşkil edir;
- Janrından asılı olmayaraq bu mövzuda yaradılmış istənilən nümunədə “millilik” davamlı xətt kimi müşahidə olunur;
- Dastanın təsviri sənətdə ideya və janr tükənməzliyi və s.

Bu mövzudan danışarkən önə çəkilən nüanslardan biri üz cizgiləridir. Sənətkarlar dastan qəhrəmanı, folklor obrazının real simalarını, üz cizgilərini ona aid olan informasiyalar əsasında öz təxəyyülünə uyğun olaraq yaradırlar. Eposda Dədə Qorqudun şəxsiyyəti haqqında söz açılsa da üz cizgiləri haqqında məlumat verilməmişdir. Bu səbəbdən rəssam və heykəltəraşlar kompozisiya quruluşunda, mövzu seçimində, eləcə də rəng həllində yaradıcılıq imkanlarından və təxəyyüldən məharətlə istifadə edirlər. Bu haqda ayrı-ayrı deyil, obrazın ümumi səciyyəvi xüsusiyyətləri qeyd etmək istərdik:

- Yaşlı;
- Ağ saçlı-saqqallı;
- Sakit, təmkinli, kədərli baxış və s.

Azərbaycan təsviri sənətində xalqımızın qəhrəmanlıq keçmişi, adət-ənənələri, geyim tərzi, ornamentlər və s bu kimi mövzular və mövzulara qarışan detallar milli sənətimizin ana xəttini təşkil edir. Təsviri sənət nümayəndələrini yaratdıqları ulu müdrik Dədə Qorqudun təxəyyüldən süzülən obrazı millilik ruhunu daşımaqla damarında türk qanı axan hər bir müasir izləyicinin daxili aləminə, mənəvi dünyasına yol tapır.

Təsviri sənətdə dastanın millilik ənənələrindən danışılaraq, əsas diqqət ümumiləşdirilmiş milli obraz - Dədə Qorqud simasına yönəldilmişdir. Bununla yanaşı, folklor qəhrəmanında “millilik” qabarıq ifadə edilmiş antropoloji və etnoqrafik cizgilər, təsvir vasitələri ilə (ağsaçlı, təbiət, geyim tərzi, ornament və simvollar, qopuz, davul, canavar, nar, qəbir daşları, İlan dağ və s.) əks edilməsi qeyd edilən sənət nümayəndələrinin əsərlərindən gətirilmiş nümunələr dastanda baş

vermiş hadisələrin daha çox Azərbaycan bölgəsində baş verməsinə şahidlik edir.

O.Sadıqzadə, E.Aslanov, E.Zeynalov, A.Azərelli, T.Nərimanbəyov, B.Qasımxanlı, Ə.Səfərov, H.Hacıyev, U.Haqverdiyev, M.Qafarov, V.Ucatay. G.Məcidova, V.Allahyarova. Y.Mehdiyev, A.Sadıqzadə. M.Rəhmanzadə, H.Allahverdiyeva, L.Quritski, F.Əliyev, G.Babayev, M.Hüseynov, T.Qazıyev. Ə.Balaxanılı, R.Əhmədov, və s. sənət nümayəndələrinin əsərlərindən misallar gətirilərək təhlil edilmişdir.

III Fəslin ikinci yarımfəsli "**Dini-mifoloji, tarixi şəxsiyyət yaxud yardımçı qəhrəman motivi** "adlanır.

Bu yarımfəsildə Dədə Qorqud simasına bir qədər ümumi anlayış kimi yanaşaraq dini-mifoloji, tarixi şəxsiyyət və ya yardımçı qəhrəman obrazını təsviri sənətdə araşdırmış olduq.

Lakin Dədə Qorqudun dastan və digər əfsanələrdəki xarakterik xüsusiyyətini araşdırarkən onun haqqında bitkin bir fikrə gəlmək olmur. Sual yaranır: "Dədə Qorqud kimdir?". Bu suala cavab tapmaq istəyən mənbələrin birində deyilir: "Dədə Qorqud obrazına universal şəkildə yanaşıb, onu Oğuz elinin bilicisi, ağsaqqalı, yol göstərəni, Oğuzda yaşamağın (kosmik nizamın) norma və prinsiplərini müəyyənləşdirən, yeraltı dünyaya səyahət edən (Dəli Qacarla elçilik məsələsi), eləcə də Oğuzu həm makro (etnos və cəmiyyət), həm də mikro (fərd) səviyyələrdə ritualdan keçirən obraz kimi, həmçinin eposun süjetlərarası əlaqəsini yaradan (süjet inisiatoru), bütün bunlarla yanaşı, əcəldən qaçan, ölümsüzlük axtaran (möcüzəli doğuluşu ilə bağlı faktları da bura əlavə edərək), bunun üçün müəyyən hiylə və kələklərə əl atan, ölümü aldatmağa çalışan obraz kimi araşdırmaya cəlb edəcəyik."[2]

Dastana diqqət etsək, bu üç motivin - Dini-mifoloji, tarixi şəxsiyyət yaxud yardımçı qəhrəman motivinin bir şəxsdə, Dədə Qorqud obrazında cəmləşdiyini görərik. Qeybdən xəbər verən, qeyri-adi gücə malik dini-mifoloji obraz Məhəmməd Peyğəmbərin dövründə yaşamış, Bayat boyundan gələn tarixi şəxsdir. Eyni zamanda oğuz elinin çətin anlarında onlara kömək edən yardımçı qəhrəmandır. Lakin təsviri sənətdə bu "üçlüyün" bir şəxsdə cəmlənməsi əlbəttə ki, mümkün olmadığı nəticəsinə gəldik. Onu da qeyd edək ki, bu mümkünsüzlük

---

[2] Hikmət Valeh oğlu Quliyev. Müdrik Qoca arxetipinin semantik strukturu və paradiqmaları. Bakı: "Elm və təhsil", 2016, – 216 səh.

ondan ibarətdir ki, öcəki yazılarımızda vurğuladığımız kimi Dədə Qorqud obrazının təsvir olunmasının vahid qanunları yoxdur. Bu isə sənətkarlara imkan verir ki, bəzi məqamları nəzərə almaqla qəhrəmanlarını istədikləri kimi təsvir etsinlər.

Yarımfəsildə F.Məmmədvəliyev, Ə.Əsgərov, V.Ucatay, T.Tahirov, T.Nərimanbəyov, Kərim Cəlal, İ.Məmmədov, SMirzəzadə, S.Muğanlı, R.Mehdiyev, S.Məmmədov, G.Məcidova, P.Əsgərova, Mehmet Sağ, Ə.Səfərov, T.Ağababayev, M.Ağabəyov, S.Quliyev, L.Salamova, A.Sadıqzadə, Z.Əhmədov, Ö.Eldarov, Q.Ramazanov, A.Mustafayev və bir sıra fırça və tişə ustlarının işlərindən misallar göstərilərək təhlil edilmişdir.

III Fəslin "**Müasir dövrdə Dədə Qorqudun Azərbaycan təsviri sənətində rolu**" adlı üçüncü yarımfəslində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədə gördüyü işlər, verdiyi sərəncamlar dövlət səviyyəsində göstərilən diqqətin nəticəsi olması qeyd olunmuşdur.

Öncəki yazılarımızda adlarını çəkdiyimiz M.Abdullayev, T.Nərimanbəyov, M.Rəhmanzadə, M.Məmmədov, A.Sadıqzadə, A.Hüseynov, B.Qasımxanlı, EMəmmədov, F.Əliyev, F.Məmmədvəliyev, İ.Məmmədov, S.Çopuroğlu, S.Məmmədov kimi rəssamlar Dədə Qorqudla bağlı silsilə əsərlər yaratmış və hal-hazırda A.Əsədli. Ə.Balaxanılı, P.Əsgərova timsalında sənətkarlar yaradıcılıqlarında KDQ dastanı ilə bağlı yeni-yeni əsərlər yaratmağa davam edirlər.

Azərbaycan incəsənətinin beynəlxalq əlaqələrin inkişafı ilə əlaqədar olaraq yalnız ölkədə deyil digər xarici ölkələrdə də Azərbaycan sənətkarları Dədə Qorqud mövzusu ilə bağlı sərgilərdə iştirak edir və hətta onların əsərləri, park və meydanlarda ucaldılan heykəllər xarici seyrçilərin marağına səbəb olmuşdur.

Müasir dövrdə Nazim Rəhmanov, Səid Rüstəm, Sabir Çopuroğlu, Əmrulla İsrafilov və digər sənət ustaları ilə yanaşı Məzahir Hüseynov, Ülviyə Musayeva kimi gənc rəssamların KDQ mövzusuna həsr etdikləri əsərlər haqqında söz açılaraq, gələcək nəslin mədəniyyətimizə, ədəbiyyatımıza, tarixi qəhrəmanlarımıza marağını artırmaq, onların istedadının üzə çıxarılmasında yaxından iştirak etmək üçün təşkil olunan sərgilərə yer verilmişdir.

Son dövrlərdə bəzi sənət nümayəndələrinin bir sıra cərəyanların təsiri altına düşərək güclü ümumiləşdirmə prosesində Dədə Qorqud

obrazının ilk baxışdan kiçik görünən çizgilərini unudaraq, özünün fəlsəfi fikir və ideyasını ifadə etməyə çalışır.

Araşdırmada yalnız Azərbaycan rəssamlarının yaratdığı Dədə Qorqud obrazının fərqli kompozisiyada, deformasiyaya uğramış bədii forma müxtəlifliyi və obrazın təhrif olunması ilə verilməsi diqqətə çatdırılmışdır. Bu, digər ölkələrin incəsənətində də mühüm yer tutaraq həm "Dədə Qorqud" obrazının yeni ideyalarla cəmiyyətə təqdim olunmasında, həm də "dünyavi zövqlər zənciri"nin möhkəmlənməsində mühüm rol oynayır.

**Nəticədə** dissertasiyanın əsas müddəaları müxtəsər elmi-nəzəri yekunlar şəklində ümumiləşdirilmişdir. Tədqiqat əsasında aşağıdakı nəticələr əldə edilib:

- Türk xalqlarının təsviri sənətində Dədə Qorqud simasının vahid bir obrazı yoxdur:
- Obrazın yaradılmasında ortaq xüsusiyyətlər - ağ saçlı saqqallı qoca; qopuz ifa edən müdrik Dədə; təmkinli, kədər dolu öz cizgiləri kimi səciyyələndirilə bilər;
- Obrazın yaradılmasında təsvir və ideyanın təkamülü məzmun və ideyanı itirmir, əksinə fikrin çatdırılmasında geniş imkanlar yaradır;
- Dədə Qorqudun dastan, Oğuznamə və əfsanələrdə rast gəlmədiyimiz peyğəmbər və Tanrı sifətlərinə təsviri sənətdə görmüş oluruq:
- Sənət nümunələrindəki geyim növləri dastanda sözü gedən dövrün geyim mədəniyyəti haqqında dolğun məlumat almaq üçün dəyərli mənbə rolunu oynaya bilər.
- Folklor qəhrəmanında "millilik" qabarıq ifadə edilmiş antropoloji və etnoqrafik cizgilər, təsvir vasitələri ilə (ağsaçlı siması, təbiət, geyim tərzi, ornament və simvollar, qopuz, davul, canavar, nar, qəbir daşları, İlan dağ və s.) əks edilməsi qeyd edilən sənət nümayəndələrinin əsərlərindən gətirilmiş nümunələr dastanda baş vermiş hadisələrin daha çox Azərbaycan bölgəsində baş verməsinə şahidlik edir;
- Milli ənənələri özündə ehtiva edən KDQ dastanı və ona həsr edilmiş təsviri sənət nümunələri cəmiyyətdə ədəbi mühitin qorunmasında böyük rol oynayır;

- “Kitabi Dədə Qorqud” dastatnına, xüsusilə Dədə Qorqud obrazına həsr olunmuş Türk dünyası sənətkarlarının təsviri sənət nümunələrinin əsərləri toplu halına salınmışdır.
- Türk dünyası mədəniyyətinin ulu qaynağı olan “Kitabi-Dədə Qorqud” dastanının təsviri sənətdə araşdırılması böyük bir elm sahəsinə çevrilmiş qorqudşünaslığın beynəlxalq miqyasda daha dərinliklərə doğru inkişafına öz töhfəsini verəcəkdir.

Tədqiqat işi çərçivəsində əldə edilmiş nəticələr təkcə sənətşünaslıq deyil, kulturologiya, ədəbiyyatşünaslıq, türkologiya, musiqişünaslıq və s. sahələrdə istifadə oluna bilər.

**Dissertasiyanın əsas məzmunu və müddəaları dissertantın aşağıdakı məqalələrində əksini tapmışdır:**

1. Əməkdar rəssam İsmayıl Məmmədovun yaratdığı şaman “Dədə Qorgud”// İncəsənət və mədəniyyət problemləri Beynəlxalq elmi jurnal. №1 (51) Bakı, 2015, səh. 71-77
2. Rəssam Asif Azərellinin Dədə Qorqud obrazı// İncəsənət və mədəniyyət problemləri Beynəlxalq elmi jurnal. №4 (54) Bakı, 2015, səh. 67-72
3. Qopuz, Dədə Qorqud obrazını formalaşdıran amil kimi// EPOS VƏ ETNOS. Beynəlxalq Elmi Konfransın materialları. Bakı, Elm və təhsil, 2016, səh. 314-319
4. Müstəqillik dövründə Dədə Qorqud obrazına yeni baxış// İncəsənət və mədəniyyət problemləri Beynəlxalq elmi jurnal. № 4 (58) Bakı, 2016, səh. 22-30
5. Образ Деде Коркута в живописи тюркских стран СНГ. // Актуальные вопросы развития искусствоведения в России, странах СНГ и тюркского мира: материалы Международной научной конференции, посвященной 120-летию со дня рождения Петра Евгеньевича Корнилова (1896–1981). Казань, 18–19 мая 2017 г. Ч. II.: Жизнь и творчество П.Е. Корнилова. – Казань, 2017, с. 125-133
6. Эволюция облика Деде Коркута в изобразительном искусстве // Znanstvena misel journal №22, Slovenia, 2018, c. 3-8

7. Təsviri sənətdə Dədə Qorqudun geyim tərzi. // Sənət Akademiyası (Elmi nəzəri jurnal) №6 (3), 2018. Nəşrdədir.
8. Təsviri sənətdə Qorqud Atanın tanrı və peyğəmbər sifətləri. // Memarlıq, şəhərsalma tarixivə bərpası, Toplu № 2 (16), 2018. Nəşrdədir.

**Рамиль Афиг оглы Гулиев**

# ОБРАЗ ДЕДЕ КОРКУТА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ ТЮРКСКИХ НАРОДОВ

## Р Е З Ю М Е

Диссертация посвящена образу Деде Коркута в изобразительном искусстве тюркских народов. Исследование состоит из введения, трех глав, девяти разделов, заключения и списка использованной литературы. Иллюстрации по теме приложены к работе в виде отдельного альбома.

Во **введении** обоснована актуальность исследования, определены научная новизна, методология, цель и задачи исследования, его практическая значимость, дана информация о степени изученности проблемы, об объеме и апробации диссертации.

В первой главе - **Формирование и эволюция образа Деде Коркута** – говорится о формировании и историческом развитии художественного образа Деде Коркута, исследуется вопрос его личности в эпосе «Китаби Деде Коркут», в эпических памятниках Огуз-наме и мифах. В этой главе освещается также роль изображенного в различных произведениях художников гопуза в формировании образа Деде Горгуда как личности, говорится об изобразительной и идейной эволюции образа.

Во второй главе - **Образ Деде Коркута в изобразительном искусстве тюркских народов** – освещаются схожие и отличительные черты образа Деде Коркута в изобразительном искусстве тюркских народов, исследуются особенности его личности (как бога, пророка, шамана, озана-сказителя) и одеяния. Отмечается, что во многих странах тюркского мира были созданы разнохарактерные образы Деде Коркута, отличающиеся этническими особенностями, свойственными тому или другому тюркскому этносу.

В третьей главе - **Место и значение образа Деде Коркута в изобразительном искусстве Азербайджана** – освещается место и значение Деде Коркута в изобразительном искусстве Азербайджана, исследуются тысячелетние традиции, выявляются

религиозно-мифологические особенности образа, вопросы его исторической личности и миссии мудрого старца, помогающего людям своими советами в нелегкий час. Эти особенности освещаются в контексте значимости образа в изобразительном искусстве Азербайджана современного периода.

В **заключении** подводятся итоги исследования.

**Ramil Afiq oglu Guliyev**

## DEDE GORGUD'S IMAGE IN THE FINE ARTS OF THE TURKIC PEOPLES

## S U M M A R Y

The dissertation is devoted to the image of Dede Gorgud in the fine arts arts of the Turkic peoples. The research consists of an introduction, three chapters, nine sections, conclusion and list of references. Illustrations on the topic are attached to the work as a separate album.

**In the introduction**, the relevance of the dissertation is substantiated, the scientific novelty, the methodology, the goal and objectives of the research, its practical significance are determined, information is given on the degree of knowledge of the problem, on the scope and approbation of the dissertation.

**The first chapter - Formation and evolution of the image of Dede Gorgud -** talks about the formation and historical development of the artistic image of Dede Gorgud, explores the question of his personality in the epic "**Kitabi Dede Gorgud**", in the epic monuments of Oghuz-name and myths.

This chapter also covers the role of the gopuz depicted in various works of artists in shaping the image of Dede Gorgud as a person, and talks about the visual and ideological evolution of the image.

**In the second chapter - the Image of Dede Gorgud in the fine arts of the Turkic peoples -** the similar and distinctive features of the image of Dede Gorgud in the fine arts of the Turkic peoples are highlighted, the features of his personality (like God, prophet, shaman, ozan-narrator) and clothing are explored. It is noted that in many countries of the Turkic world, diverse characters of Dede Gorgud were created, differing in ethnic features characteristic of one or another Turkic ethnos.

**The third chapter - Place and significance of the image of Dede Gorgud in the fine art of Azerbaijan -** highlights the place and importance of Dede Gorgud in the fine art of Azerbaijan, explores

millennial traditions, reveals the religious and mythological features of the image, questions of its historical personality and the mission of a wise old man who helps people with his advice in a difficult time.

**In conclusion**, summarizes the research.

Format: 60x84 $_{16}/^{1}$
Tiraj:100
AMEA-nın mətbəəsində çap olunub

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ АРХИТЕКТУРЫ И ИСКУССТВА**

*На правах рукописи*

**РАМИЛЬ АФИГ оглы ГУЛИЕВ**

# ОБРАЗ ДЕДЕ КОРКУТА В ИЗОБРАЗИТЕЛЬНОМ ИСКУССТВЕ ТЮРКСКИХ НАРОДОВ

**Специальность:** 6215.01 – “Изобразительное искусство”

**А В Т О Р Е Ф Е Р А Т**
диссертации на соискание ученой степени доктора философии
в области искусствоведения

**БАКУ - 2018**